

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 150 (21.302)

4 avqust 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü qeyd olunub



*1 avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü münasibətilə AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi, Mədəniyyət və Turizm və Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə tədbir keçirilib.*

Əvvəlcə tədbir iştirakçıları şəhərimizdəki "Ana dili" abidəsini ziyarət ediblər.

Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında davam etdirilən tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, Azərbaycan dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti dahi rəhbərin dövlət quruculuğu siyasətinin əsas tərkib hissəsidir. Ölkəmizə rəhbərliyinin birinci dövründə ulu öndər Heydər Əliyev Azərbaycan dilinin Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olub. Həmin illərdə Azərbaycan dilinin qrammatik quruluşunun elmi şəkildə öyrənilməsinə başlanılıb, dilçi alimlər üçün geniş fəaliyyət istiqamətləri müəyyənləşdirilib, anadilli mətbuatımızın inkişafına şərait yaradılıb. Məhz elə Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsisi də ümummilli lider Heydər Əliyevin 1969-cu ildən başlanan milli dil və milli dövlətçilik siyasətinin davamıdır.

Diqqətə çatdırılıb ki, bu gün milli dil siyasəti ölkəmizdə uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 12 yanvar tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı bu baxımdan mühüm əhəmiyyət kəsb edən sənəddir. Ölkə Prezidentinin 2013-cü il 9 aprel tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı Azərbaycan dilinə göstərilən qayğının ifadəsi olmaqla yanaşı, həm də bu sahədə bir sıra tədbirlərin həyata keçirilməsinə şərait yaradıb.

Akademik İsmayıl Hacıyev Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən dövlət dil siyasətindən danışıb. Bildirib ki, Naxçıvan şəhərində "Ana dili" abidəsinin ucaldılması, Azərbaycanda latın qrafikasına keçiddən sonra muxtar respublikanın kitabxanalarına 2 milyondan artıq kitab verilməsi ana dilimizə olan dərin ehtiramın ifadəsidir. AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun yaradılmasının, burada çalışanlara, həmçinin dilçiliklə məşğul olan gənc kadrlara normal iş şəraitinin qurulması da dilimizin inkişafı istiqamətində atılan mühüm addımlardandır. Son illər muxtar respublikada dərc olunmuş "Naxçıvan Ensiklopediyası", "Naxçıvan Abidələri Ensiklopediyası", 3 cilddə "Naxçıvan Folkloru Antologiyası" və xeyli sayda digər nəşrlər tariximiz, mədəniyyətimizlə yanaşı, dilimizin də inkişafına mühüm töhfədir.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrasının müdiri, pedaqogika üzrə elmlər doktoru Elbəyi Maqsudovun "Ana dili xalqımızın milli varlığıdır", Naxçıvan Müəllimlər İnstitutunun tədris işləri üzrə prorektoru, filologiya üzrə elmlər doktoru Akif İmanlının "Ən böyük milli dəyərimiz ana dilimizdir", AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Firudin Rzayevin "Azərbaycan dilinin tarixi və onun yayıldığı ərazilər" mövzularında çıxışları olub.

*Ordu quruculuğu prosesində əsas amillərdən biri də kadr hazırlığıdır. Buna görə də hərtərəfli bilik və bacarıqlara yiyələnmiş peşəkar kadrların yetişdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasında hərbçi kadrların hazırlanması diqqət mərkəzində saxlanılır. Avqustun 1-də Əlahiddə Ümumqoşun Orduda zabit hazırlığı kursunu müvəffəqiyyətlə bitirən 22 məzunun ilk buraxılışı olub.*

## Zabit hazırlığı kursunun ilk buraxılışı



Mərasimdə Azərbaycan Respublikası Müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayev şəxsi heyəti salamladıqdan sonra sıra meydanına hərbi hissənin döyüş bayrağı gətirilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və buraxılış mərasimi açıq elan olunub.

Məzunlardan leytenant Əli Abdullayev, valideynlər adından isə Elxan Alməmmədov çıxış edərək muxtar respublikada zabit hazırlığı kursunun təşkil edilməsinin ordu quruculuğu sahəsində həyata keçirilən məqsədyönlü tədbir olduğunu vurğulayaraq dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayev zabit hazırlığı kursunu bitirən məzunları təbrik edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu iş Naxçıvan Muxtar Respublikasında da qətiyyətlə aparılır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qayğısı ilə hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilib, şəxsi heyətin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığının səviyyəsi əhəmiyyətli dərəcədə artıb. Həyata keçirilən tədbirlərlə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev deyib: ***"Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir".***

Tam əminliklə deyə bilərik ki, Naxçıvan əhalisi rahat, sabitlik şəraitində yaşayır. Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordunun varlığı qədim diyarın malik olduğu hərbi qüdrəti özündə əks etdirir.

Sonra hərbi hissənin döyüş bayrağı sıra önünə çıxarılıb. Azərbaycan Respublikası Müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayev zabit hazırlığı kursunu bitirən məzunlara sertifikatları təqdim edərək onlara xidmətlərində uğurlar arzulayıb.

Kurs birincisi Nicat Rəhimov tərəfindən yaş kötüyünə buraxılış emblemi vurulub, məzunlar döyüş bayrağı qarşısında and içiblər.

Sonda məzunların təntənəli keçidi olub.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə iclas keçirilib.*

## Həkim-məsləhət komissiyalarının fəaliyyəti müzakirə edilib

İclasda tibb müəssisələrindəki həkim-məsləhət komissiyalarının fəaliyyətinin və tibbi-sosial ekspert komissiyalarına göndərişlərin vəziyyətinin daha da yaxşılaşdırılması ilə əlaqədar məsələ müzakirə edilib. Birgə iclasda Səhiyyə naziri Niyazi Novruzov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov çıxış edərək pensiya və müavinətlərin dayanıqlı maliyyə təminatının formalaşdırılmasını ölkədə həyata keçirilən uğurlu sosial siyasətin bəhrəsi kimi dəyərləndirərək bu sahədə görülən işlərdən danışıblar.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Qadir Əliyev ötən yarımildə rayonlar üzrə tibbi-sosial ekspert komissiyasına göndərilən müraciətlər, ekspertizadan keçən xəstələr, əlillik qrupu təyin edilən, əlavə müalicəyə qaytarılan, əlillikdən imtina olunan xəstələr haqqında məlumat verib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov tibb müəssisələrində həkim-məsləhət komissiyalarının fəaliyyəti, tibbi-sosial ekspert komissiyalarına göndərişlərin vəziyyəti barədə çıxış edib.

Tədbirdə bildirilib ki, hazırda əlilliyin təyin olunması meyarları müvafiq hüquqi baza ilə müəyyənləşdirilir və əlillik vətəndaşın xəstəliyinin ağırlıq dərəcəsindən asılı olaraq təyin edilir. Xəstə müvafiq səhiyyə müəssisələrinin həkim-məsləhət komissiyasına müraciət edir və həmin komissiya tərəfindən xəstəyə müvafiq formada göndəriş verildiyi halda, o, ərazi tibbi-sosial ekspert komissiyasına göndərilir. Burada ətraflı müayinə olunur və ona vəziyyətə uyğun olaraq əlillik dərəcəsi (I, II, III) müəyyən edilməklə əmək zəmanəti verilir. Əmək zəmanəti verilərkən isə vətəndaşın əmək qabiliyyəti olub-olmamasına dair məlumatlar (işi, ixtisası, peşəsi) nəzərə alınır. Əlilliyin qarşısının alınması və əlillərin reabilitasiyası sahəsində aparılan məqsədyönlü tədbirlər nəticəsində tibbi-sosial ekspert komissiyasına göndərişlərin sayı ilbəil azalır. Məsələn, 2015-ci ilin ilk yarısında səhiyyə müəssisələri tərəfindən əlillik qrupu almaq üçün ilkin göndərişlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 36 nəfər azalıb.

Tədbirdə həkim-məsləhət komissiyaları tərəfindən tibbi-sosial ekspert komissiyasına göndərişlərin təlimata uyğun həyata keçirilməsi, hiperdiaqnostika, əsaslandırılmamış göndərişlərin yazılmasına yol verilməməsi, imtiyazlı əlillərin nəqliyyat vasitələri ilə təmin olunmasında tam şəffaflığın yaradılması barədə müvafiq tapşırıqlar verilib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Səhiyyə ocağında hərtərəfli tibbi xidmətin göstərilməsinə şərait yaradılır



Naxçıvan Muxtar Respublikasında səhiyyə infrastrukturunun müasir tələblər səviyyəsində qurulmasına böyük diqqət göstərilir. Səhiyyə quruculuğu istiqamətində həyata keçirilən tədbirlərin mühüm bir hissəsini də yeni səhiyyə müəssisələrinin tikilməsi, mövcud olanların əsaslı şəkildə yenidən qurulması təşkil edir. Muxtar respublikanın ən böyük tibb müəssisəsi olan Naxçıvan Muxtar Respublika Xəstəxanası binasının əsaslı şəkildə yenidən qurulması da məhz insan sağlamlığının qorunmasına xidmət edən mühüm tədbirlərdən biridir.

Xəstəxanada ən müasir tibbi avadanlıqlar quraşdırılacaq. Dövlət başçısının 2014-cü il 11 aprel tarixli Sərəncamı ilə xəstəxananın müasir tibbi avadanlıqlarla təchiz olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 9 milyon manat vəsait ayrılıb.

Binada "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları xeyli iş görüblər. Belə ki, ilkin mərhələdə binanın təməl hissəsinin daha da möhkəmləndirilməsi məqsədilə ətraf xüsusi beton örtüyü ilə əhatələnib, zirzəmidə üçmərhələli izolyasiya işləri aparılıb. Zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarət olan binada su, elektrik, istilik xətlərinin çəkilişi başa çatdırılıb, dam örtüyü vurulub, pəncərələr salınıb. Binanın ilk 3 mərtəbəsinin fasadı üzlük daşla üzlənib.

Qeyd edək ki, xəstəxanada 109 palata yerləşəcək, çarpazşəkilli dördkorpuslu binanın hər korpusunda yük və sərnişin liftləri olmaqla, 10 lift fəaliyyət göstərəcək. Binanın giriş hissəsinin oval şəbəkəbənd formasında olması isə bu səhiyyə ocağına gələnlərə asanlıqla bir korpusdan digərinə keçmək imkanı yaradacaq. Bundan əlavə, yeni layihəyə əsasən, binanın zirzəmi hissəsində masaj salonu, hovuz, duş kabinələri, morq, həkim və tibb bacıları üçün otaqlar, xidməti yerlər yaradılacaq. Birinci mərtəbə stomatoloji kabinələr, təcili yardım, palatalar, fizioterapiya, ot vannası və Naftalan nefti ilə müalicə kabinələri, rentgen, əməliyyat otaqları üçün nəzərdə tutulub. Qalan mərtəbələr isə xəstəxananın şöbə və bölmələri, həkim və tibb bacıları, palatalar və digər müayinə və müalicə otaqları, laboratoriyalar, istirahət guşələri üçün ayrılıb. Binanın sonuncu mərtəbəsində geniş akt zalı, kafe və tibb təhsili alan tələbələr üçün siniflər yerləşəcək. Xəstəxana binası istifadəyə verildikdən sonra 50 metr kənarda yeni köməkçi bina da fəaliyyət göstərəcək ki, bu ikimərtəbəli binada qazanxana, camaşırxana, elektrik və təsərrüfat otaqları, bufet və sair yerləşəcəkdir.

**Xəbərlər şöbəsi**

**Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra bazar iqtisadiyyatı yolunu tutmuş və bu yolda sürətlə irəliləməkdədir. Milli iqtisadiyyatda özəl sektorun, bunun da nəticəsində sahibkarlığın inkişaf etdirilməsi üçün indiyədək çoxsaylı dövlət proqramları həyata keçirilmiş, hərtərəfli qanunvericilik bazasının yaradılması təmin olunmuşdur. Bunun da nəticəsində ölkəmizdə, həmçinin muxtar respublikamızda böyük sahibkarlar sinfi yaranmış və sahibkarlar dövlətimizin iqtisadi dayaqlarının gücləndirilməsində mühüm rol oynamaqdadırlar.**

# Babək rayonunda sahibkarlığın inkişafına qayğı yeni istehsal və xidmət sahələrinin yaradılmasını təmin edib

Məlumdur ki, bir ölkənin hərtərəfli inkişafı onun həmin ölkənin güclü və çoxsaylı sahibkarlarının fəaliyyətindən birbaşa asılıdır. Hər bir sahədə dəqiq mexanizm işlədiyi kimi, sahibkarlığın da özünəxas dəqiq, düşünülmüş mexanizm və hədəfləri var. Ölkəmizin sosial-iqtisadi inkişafını sahibkarlıq fəaliyyəti ilə çox sıx şəkildə əlaqələndirən ulu öndərimiz Heydər Əliyev deyirdi: ***“Azərbaycanda bazar iqtisadiyyatının həyata keçirilməsi və onun bir hissəsi olan sahibkarlıq prosesinin yaranması və inkişaf etdirilməsi asan deyildir. Bizim hamımız birlikdə on illərlə mərkəzləşmiş dövlət iqtisadiyyatı şəraitində yaşamışıq. O dövrdə heç bir sahibkarlığa imkan verilmirdi. Və insanlar nəsildən-nəslə sahibkarlığın nə olduğunu unudurdular. İndi sahibkarlığı yenidən bərpa etmək, insanları buna alışdırmaq, onlarda sahibkarlıq keyfiyyəti yaratmaq, insanlarda sahibkarlıq xüsusiyyətləri tərbiyə etmək, yüksəksəviyyəli sahibkarlar hazırlamaq, milli sahibkarlar yaratmaq – bunlar vaxt tələb edir. Bunlar eyni zamanda dövlətin qayğısını tələb edir”.***

Ümummilli liderin tövsiyə xarakterli bu fikirləri bu gün ölkəmizdə reallığa çevrilib. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında dövlət idarəetmə sistemində və iqtisadi sahədə aparılan uğurlu islahatlar sahibkarlığın formalaşmasına böyük stimul olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Naxçıvanda bacarıqlı sahibkarlar sinfi formalaşıb. Muxtar respublikada istehsal olunan məhsulların keyfiyyətinə görə xarici ölkələrdə mükafatlara layiq görülməsi təqdirəlayiqdir. Bunların sayını artırmaq üçün isə daha çox çalışmaq lazımdır”.***

Bu gün muxtar respublikamızın hansı bölgəsinə üz tutsaq, sahibkarların hərtərəfli qayğı ilə əhatə olunduğunu görərik. Buna görə də onların sayı gündən-günə artır. Bu artım günün tələbi kimi diqqəti çəkir. Yaxşı hal həm də ondan ibarətdir ki, sahibkarlıq subyektlərinin artması rəqabətədavamlı məhsul istehsalına şərait yaradır. Bunu Babək rayonunun timsalında da görmək mümkündür. Rayon Vergilər İdarəsindən aldığımız məlumata görə, bölgədə un, qənd, şirniyyat, çörək, ət, su, quşçuluq məhsulları, istixana, kərpic, dəri emalı və istehsalı və sair ilə məşğul olan 172 sahibkarlıq subyekti var. İdarədə rayon üzrə ümumilikdə 1053 aktiv vergi ödəyicisi qeydiyyatda durur. Biz də onların bir neçəsinin fəaliyyəti ilə yaxından tanış olduq.




Nehrəm kəndində Tərifə Əlirzayevanın rəhbərlik etdiyi müəssisə rayonda çörək istehsalı üzrə fəaliyyət göstərən 33 müəssisədən biridir. Müəssisə Sahibkarlığa Kömək Fondundan 15 min manat kredit götürülərək qurulub. Burada çörək istehsalı üçün müasir avadanlıqlar quraşdırılıb. 6 nəfər kənd sakini müəssisədə daimi işlə təmin edilib. Müəssisədə bişirilən çörəyin kənddə və rayonun digər yaşayış məntəqələrində xeyli alıcısı var. Burada çalışanlar üçün hərtərəfli iş şəraiti yaradılıb, onlarla əmək müqaviləsi bağlanılıb. Sahibkarlıq obyektində çalışanlar rəqabətədavamlı məhsul istehsal etmək üçün yaradılmış şəraitdən səmərəli istifadə edirlər.

Badaşqan kəndində şirniyyat istehsal edən müəssisəyə isə Habil Babayev rəhbərlik edir. “Nihad şirniyyat” müəssisəsi 2013-cü ildə Sahibkarlığa Kömək Fondundan 26 min manat kredit götürülərək ötən il qurulub. 230 kvadratmetr sahəsi olan müəssisədə 4 nəfər işlə təmin edilib. Burada, əsasən, kəllə qənd, noğul, nanəli konfet və lokum istehsal olunur. Habil Babayev deyir ki, daxili bazarda adıçəkilən şirniyyat məhsullarına olan tələbatı ödəmək məqsədilə yaradılmış müəssisədə istehsal olunan məhsullar müxtəlif çəkilərdə qablaşdırılaraq satışa çıxarılır. Ötən bir il ərzində müəssisənin məhsulları yerli bazarda özünə layiqli yer tuta bilib. Sahibkar deyir ki, tələbat olarsa müəssisədə qurulan avadanlıqlar daha artıq məhsul istehsal etməyə imkan verir. Buna görə də gələcəkdə ölkəmizin digər regionlarına da məhsul ixrac etməyi düşünürük.



Yerli ərzaq məhsullarının satışı ilə məşğul olan “Bizim qida” Məhdud Məsuliyyətli Cəmiyyəti isə rayonun Qoşadizə kəndi ərazisində fəaliyyət göstərir. Cəmiyyətin direktoru Vaqif Əliyev bildirir ki, müəssisə 2012-ci ildə qurulub. 1200 növdə müxtəlif ərzaq məhsullarının satıldığı müəssisənin 1000 kvadratmetrlik anbarı vardır ki, bu anbarda da məhsullar beşmərtəbəli böyük rəflərdə saxlanılır. 50 kvadratmetrlik soyuducu anbara isə əsasən, soyuq şəraitdə saxlanılan məhsullar yığılır. Müəssisədə 40 nəfər daimi işlə təmin olunub. 1500 kvadratmetr əraziyə malik müəssisənin inzibati binasında ofis, yeməkxana, iclas zalı və digər otaqlar yerləşir. Vaqif Əliyev deyir ki, buradakı məhsulların satışı həm də onlayn olaraq həyata keçirilir. Belə ki, pərakəndə satış obyektlərində fəaliyyət göstərən satıcılar hər hansı bir məhsulu onlayn sifariş edə, qiyməti ilə maraqlana və ya şikayət və təkliflərini bildirə bilərlər. Bundan əlavə, müəssisənin ofisindən satış obyektlərində hansı məhsulun daha çox satıldığını və ya qurtardığını da şəbəkə vasitəsilə izləmək mümkündür. Müsahibimiz bizimlə söhbətində onu da vurğulayır ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda sahibkarlığın inkişafına göstərilən böyük qayğı onları daha yaxşı işləməyə, əhalini keyfiyyətli ərzaq məhsulları ilə təmin etməyə həvəsləndirir.

Rayonun Cəhri kəndində də kifayət sayda istehsal müəssisəsi və xidmət sahələri fəaliyyət göstərir. Bunlardan biri un dəyirmanıdır. 2001-ci ildə yaradılan müəssisədə bir gündə 10 ton buğda üyüdülür. Burada istifadə olunan avadanlıqlar Türkiyə Respublikasından gətirilib. Dəyirmanda bütün işlər mexanikləşdirilib, 2 nəfər işlə təmin olunub. Ötən illərdə dəyirmanın istehsal sahəsi genişləndirilib, çörəkbişirmə sahəsi fəaliyyətə başlayıb. Daha 4 nəfər kənd sakini isə bu sahədə daimi işlə təmin olunub.

Müəssisənin rəhbəri Sənan Novruzovun sözlərinə görə, muxtar respublikada taxılçılığın inkişafına göstərilən qayğı, ilbəil taxıl əkini sahələrinin genişləndirilməsi dəyirmanda da iş həcminin artmasına səbəb olub. Həmsöhbətimiz bildirir ki, bu il 54 hektar sahədən taxıl tədarük edib. 2013-cü ildə isə güzəştli kredit hesabına “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətindən kombayn alıb.

Öyrənirik ki, kənddə fəaliyyət göstərən dəyirmana təkcə Cəhri kəndindən deyil, qonşu kəndlərdən də taxıl üyütmək üçün xeyli buğda gətirilir.



Ümumiyyətlə, muxtar respublikanın ən böyük yaşayış məntəqələrindən biri olan Babək rayonunda fəaliyyət göstərən sahibkarlıq müəssisələrinin hər biri haqqında ayrıca danışmaq olar. Sahibkarlığın inkişafına göstərilən qayğı hesabına rayonun əksər kəndlərində müxtəlif istehsal sahələri qurulub və fəaliyyət göstərir. Sahibkarlarla söhbətimizdə o da bəlli oldu ki, dövlətimizin onların fəaliyyəti üçün yaratdığı şərait əldə olunan uğurların əsasını təşkil edir. Onu da qeyd etmək istəyirik ki, rayonda belə müəssisələrin sayının artması daxili bazarda yerli məhsulun xüsusi çəkisinin artmasında başlıca rol oynayır. Yerli məhsul bolluğu isə idxal edilən məhsulların qarşısının alınması ilə yanaşı, bu məhsulların xarici bazara ixracına da şərait yaradır. Bu da muxtar respublika iqtisadiyyatına əlavə gəlir gətirir.

**Səbuhi HƏSƏNOV**

# Kiçik və orta sahibkarlıq uğurlu biznes sahəsidir

*Kiçik və orta sahibkarlıq məşğulluğun və innovasiyaların vacib mənbəyidir. Belə ki, bu sahibkarlıq növlərinin inkişafı bir tərəfdən məhsul bolluğu yaratmaqla daxili istehlak bazarının formalaşmasına səbəb olur və sağlam rəqabət üçün geniş imkanlar açır, digər tərəfdən isə işsizlik kimi kəskin sosial-iqtisadi problemlərin həllini sürətləndirir və dövlət büdcəsinin zənginləşməsinə kömək edir.*

Kiçik və orta sahibkarlar iqtisadi inkişafın və rəqabətin dinamik artımına xidmət edirlər. Qısaca ümumiləşdirsək, bu sahibkarlar iş yerləri məhdud olan ünvanlara işsizliyi aradan qaldırır, istehlakçıları bazarla təmin edir, vergi ödəməklə büdcənin və əhalinin müəyyən hissəsinin gəlirini artırırlar.

Beynəlxalq qiymətləndirmələrə görə, kiçik və orta sahibkarlıq sektorunun iqtisadiyyata, məşğulluğa və təhlükəsizliyə əsaslı təsir göstərməsi üçün kiçik müəssisələrin məşğulluq sahəsində və əlavə dəyərin yaradılmasında, təxminən, 40 faizlik iştirak payı olmalıdır. Yalnız bu halda onlar mövcud iqtisadi resursları mənimsəyib onları davamlı inkişafa doğru istiqamətləndirə bilərlər.

Bununla belə, kiçik və orta sahibkarların nəzərdə tutulmuş nəticələrə nail olması üçün sahibkarların qanuni müəssisələr yaratmaq motivasiyası olmalıdır. Sahibkarları qanuni fəaliyyət göstərməyə inandırmaq və onların bizneslərinin “yaşama”sına kömək etmək üçün ən əhəmiyyətli amil isə biznes mühitidir.

Bu gün muxtar respublikamızda kiçik və orta sahibkarların inkişafı üçün istər dövlət dəstəyi, istərsə də yaradılmış biznes mühiti kifayət qədər imkan verir ki, bu sahədə yüksək nəticələrə nail olunsun.

İlkin kapitalı öz şəxsi vəsaitləri hesabına formalaşdıran kiçik və orta sahibkarlar sonrakı fəaliyyət dövründə daha yaxşı nəticələrə nail ola bilirlər. Belə ki, xərclərinin azlığı onların büdcələrini daha səmərəli formalaşdırmalarına imkan verir. Bu halda müəyyən sahibkarlıq təşkili mexanizminin mövcudluğu sahibkarın fəaliyyətinin inkişafına təkan verir və gələcək mərhələlərdə layihənin davamlılığına və effektivliyinə zəmin yaradır.

Hazırda dünyada kiçik sahibkarlığın əsas maliyyə mənbəyi şəxsi kapitalları ilə yanaşı, həmçinin müxtəlif maliyyə institutlarından alınan borc vəsaitləridir. Məsələn, ABŞ-da bu qəbildən olan subyektlərin 77 faizi fəaliyyətləri dövründə ən azı bir dəfə də olsa kredit götürmüş olurlar. Avropa Birliyində kiçik və orta sahibkarlıq subyektlərinin azı 76 faizinin bir və ya bir neçə banka kredit borcu vardır.

Bu gün muxtar respublikamızda kiçik və orta sahibkarlıqla məşğul olmaq istəyən şəxslərin bir çoxu fəaliyyətə başladığı anda şəxsi kapitala malik olmur və bütünlüklə tələb olunan ilkin kapitalı bank krediti hesabına formalaşdırmağa çalışır. Onların bəzilərinin bu borcları effektiv idarəetmə bacarıqlarının olmaması isə gələcək qısa müddət ərzində həmin kreditlərin biznesin inkişafından daha çox onların zəifləməsinə və hətta müəyyən mərhələdə iflasına səbəb olur. Əksər vaxtlarda isə sahibkarlıq fəaliyyətinin tamamilə dayandırılması ilə nəticələnir.

Xüsusilə də zəif inzibati resurslara malik kiçik və orta sahibkarlıq subyektlərində iri şirkətlərə nisbətən kreditlərlə bağlı risklər yüksək olur. Bazar hakimiyyətinin iri şirkətlərə verdiyi rəqabət üstünlüyünü nəzərə aldıqda kiçik və orta sahibkarların fəaliyyətində potensial risklər daimi xarakter daşıyır.

Bəzən isə müəyyən sahibkarlıq biliklərinə malik olmadan, reallaşdırılacaq layihəni müvafiq meyarlar əsasında təhlil etmədən, layihənin öz xərclərini ödəyə bilmə imkanını və müddətini nəzərə almadan, eləcə də öz bazar paylarını müəyyənləşdirmədən sahibkarolma arzusu qısa müddət ərzində puç olur. Bu prosesdə əsas zərbə isə məhz layihələrin reallaşdırılması üçün dırnaqarası sahibkarı ilkin kapitalla təmin edən banklara və digər maliyyə institutlarına dəymiş olur. Nəticədə banklarda problemli kreditlər yaranır. Qaytarılmalı olan kredit borcları isə uzun müddət ərzində dövriyyədən kənarda qalır. Bu proses isə bankların kredit resurslarını tükətdiyindən onların kiçik və orta sahibkarlıq subyektlərini maliyyələşdirmə marağının azalmasına səbəb olur.

Bir sıra hallarda isə sahibkarlığın inkişafı məqsədilə verilən kreditlərə tətbiq olunan güzəştlərdən faydalanmaq istəyən şəxslər bu məqsədlə aldıqları kreditləri təyinatına uyğun istifadə etməkdən boyun qaçırırlar. Bu vəsaitlər isə hədəflərindən kənarlaşır, hər hansı bir xarici istehsal olan avtomobilin alınması, xaricə turizm səfərinə çıxmaq, toy şənliyi etmək və başqa bu kimi “zəruri ehtiyaclar”ın ödənməsində vasitəçi olur. Məhz bu kimi hallar banklarla müştərilər arasındakı etibarlı partnyorluğa sarsıdıcı zərbə vurur.

Halbuki bu gün ölkə iqtisadiyyatının əsas aparıcı subyektləri sayılan kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi iqtisadiyyatın qeyri-neft sektorunun da inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Və məhz bu məqsədlə də sahibkarlarla onları maliyyə resursu ilə təmin edən kredit təşkilatlarının qarşılıqlı etibarlılığa əsaslanan partnyorluğu vacib məsələdir.

**Elçin ƏLİYEV**
***Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi***

*Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu bir çox dünya səviyyəli arxeoloji abidələrin, məscidlərin, qədim və orta əsr memarlığının incilərindən sayılan tarixi qalaların mərkəzidir. Bu abidələr tarixçilər və xarici qonaqlarda heyranedici təəssüratlar yaratmış və dünya tarixinin gələcəkdə öyrənilməsi üçün yeni perspektivlərə yol açmışdır. Ordubad dağlıq əraziyə malikdir. Buradakı tarixi araşdırmalar, İpək Yolu ticarət marşrutu və dini incəsənətin mavi izləri çox əsrlərboyu Azərbaycan xalqının dünya tarixinə və Avrasiya qitəsində mədəniyyətin inkişafına göstərdiyi xidmətlərdən xəbər verir.*

## Naxçıvan dünya memarlığının canlı yaddaşıdır



***Gülüm-Gülüm*** abidəsi Ordubad rayonunda yerləşən tarixi abidələrdən biridir. Bu abidə Nəsirvaz kəndinin yaxınlığındakı dağın cənub-qərb yamacında aşkar edilmişdir. Arxeoloji araşdırmalar zamanı həmin ərazidə iri daşlarla hörülmüş müdafiə divarları və yaşayış binalarının qalıqları aşkar olunmuşdur. Müdafiə divarları yanlardan iri qaya parçalarından hörülərək onların arası kiçikhəcmli daşlarla doldurulmuşdur. Bəzi yerlərdə müdafiə divarının uzunluğu 35 metrə çatır. Divarın eni müxtəlifdir. Onun qalınlığı 1,2-1,5 metr arasındadır. Qalanın yaşayış yerinin ərazisində dördkünc formada inşa olunmuş yaşayış binalarının qalıqları da vardır. Onların böyük bir qismi dağ uçqununun altında qalaraq dağılmışdır. Araşdırmalar göstərir ki, yaşayış yerindən uzun müddət, XV əsrə qədər istifadə olunmuş, orta əsrlərdə isə bağ yerinə çevrilmişdir. Deyilənlərə görə, burada ağanın bağı olmuş və o bağda hər növ meyvədən əkilmişdir. Yaşayış yerinin tikinti qalıqlarına əsasən, buranı e.ə I minilliyə aid etmək olar.

***Gülüm-Gülüm*** piri Ordubad rayonunun Nəsirvaz kəndinin yaxınlığında yerləşir. Pir dağ daşlarından dördkünc formada tikilmişdir. Giriş cənubdandır. Ölçüsü 4,5x3,1 metrdir. Divarların qalınlığı 90 santimetrdir. Pirin ətrafında aşkar olunan keramika məmulatı orta əsrlərə aiddir. Gülüm-Gülüm dağının əfsanəsinə görə, indiki Nəsirvaz kəndi əvvəl bu dağın ətəklərindəymiş. Əfsanəyə görə, kənddə bir gəlin hər gün dağın səsini eşidirmiş ki, gəlim-gülüm. Gəlin gül deyincə bütün çöl-çəmən gülzarlığa dönür, insanlara sanki xoşbəxtlik verilirmiş. Bir gün gəlin kefsiz olur. Elə bu vaxt dağın gəlim-gülüm çağırışına qarşılıq olaraq gəlin acıqlı-acıqlı "gəlirsən, gəl" deyir. Dağ gurultu ilə gəlib kəndi basır. Həmin pir binasını XIII-XIV əsrlərə aid etmək olar. Bu yer Ordubada səfər edənlər, tarixi öyrənmək üçün maraq göstərənlər və dünyanın bu hissəsində Naxçıvanın ən mühüm kəndində canlı sivilizasiya barədə biliklərini artırmaq istəyən insanlar üçün əlamətdar yerlərdən biridir.

Araz çayı vadisi də arxeoloji tədqiqatların aparılması üçün çox mühüm potensiala malikdir. ***Gülüstan türbəsi*** burada – Araz çayının sol sahilində yerləşir. Hazırda yaşayış yerinin ərazisində bir neçə yerdə möhrədən tikilmiş divarların qalıqlarına rast gəlinir. Onlardan birinin uzunluğu 48, eni isə 45 metrdir. Abidədə aparılan araşdırmalar zamanı çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika nümunələrinə rastlanır. Şirli qablar orta əsrlərin inkişaf etmiş dövrü üçün xarakterikdir. Tanınmış beynəlxalq arxeoloqlara görə, bu yaşayış ərazisi XI əsrin əvvəllərinə aiddir və Azərbaycan Respublikasının tarixi əhəmiyyətli yerlərindən biridir.

Araz çayı üzərindəki ***Gülüstan*** körpüsü, yaxud ***Ziya-ül Naxçıvaninin mülk körpüsü*** Naxçıvan memarlıq irsinin daha bir nümunəsidir. Gülüstan körpüsü Culfa rayonu yaxınlığında, Araz çayının toxunduğu dağın burulğan halda döndüyü yerdə yonulmuş daşlardan inşa olunmuşdur. Körpünün salınması buranın Böyük İpək Yolu üzərində mühüm mərkəz kimi əhəmiyyətini artırmışdır. Olduqca möhkəm, son dərəcə hamar və gözəl görünüşə malik körpünün iki yüksək və geniş tağı olmuşdur. Onlardan birinin eni 28 qarış, digərinin eni isə 24 qarışdır. Xeyli hündür olan körpünün hər iki tərəfində daşdan darvaza var imiş. Tağlardan birinin altından karvansaray kimi istifadə edilirmiş. Körpünün salınma texnikası mahir mühəndisləri də heyran qoyurdu. Hazırda körpünün yalnız 5 dayağı qalmışdır. Birinci istisna olmaqla, bütün dayaqlar pis vəziyyətdədir. Bunlar üzlüyü qopmuş çaydaşı hörgüsü qalıqlarıdır. Salamat qalmış sahil dayağının suya baxan səthində 4 sıra dairəvi boşluqları olan körpü tağının dabanı görünür. Güman ki, onlar hörgünün içinə qoyulmuş ağac bağlayıcılarının yuvalarıdır. Belə oyuqlar digər dayaqların qalıqlarında da vardır. Körpü dayağının çaya baxan tərəfində nazik və hündür arakəsmələrlə 3 hissəyə bölünmüş geniş qapı yeri qalmışdır. Çayın içindəki ikinci dayaqda da 3 hissəli bölgünün izləri müşahidə olunur. Sahil dayağının dağa uzanan divar qalıqları orta əsr tarixçisi Şərəfəddin Əli Yəzdinin təsvir etdiyi karvansarayın xarabalıqlarıdır. Körpünün tikintisi üçün əsas inşaat materialları kimi əhəng məhlulundan istifadə edilmişdir. Tikinti massivinin müxtəlif hissələrində bu dövr üçün səciyyəvi olan dördkünc kərpic hörgüsü müşahidə olunur. Əmir Teymur 1386-cı ildə Mərənd və Zər dərəsi istiqamətindən Naxçıvana gələrkən bu körpüdən keçmişdir. Xarabalıqlar xalq arasında "İsgəndər körpüsü" adı ilə də tanınır. XIV əsr tarixçisi Həmdullah Qəzvininin "Nüzhət əl-qülub" (Qəlblərin əyləncəsi) əsərində verdiyi məlumata görə, körpünü Ziya-ül Mülki Naxçıvani tikdirmişdir.



FOREIGN POLICY NEWS

Nakhchivan: Living memory of the world architecture

***Ziyarət piri*** Şahbuz rayonunun Nursu kəndində yerləşən daha bir ziyarətgahdır. Pirin yerində vaxtilə tikinti olmuşdur. Hazırda pir binası bişmiş kərpiclə bərpa olunmuşdur. Giriş şimal tərəfdəndir. Binanın içərisində müsəlman adəti ilə dəfn olunmuş qəbir vardır. İçərisinə xalça döşənmiş və islam müqəddəslərinin şəkli asılmışdır. Pir XVIII-XIX əsrlərə aiddir.

***Günorta daşı*** Kəngərli rayonu ərazisində, Çalxandağının yamaclarında hündürlüyü 1500 metrə çatan təbiət abidəsidir. Xalq arasında Günortacı da deyilir. Günorta daşı günortaya qədər kölgəyə bürünmüş olur, düz günorta vaxtı isə kölgə tamamilə çəkilir. Ətrafdakı Çalxanqala, Təzəkənd, Xıncab və Sust kəndlərinin camaatı ta qədimdən ilin bütün fəsillərində əkin-biçin, sağın və sair təsərrüfat işləri zamanı günortanı səhvsiz göstərən Günorta daşından "saat" kimi istifadə etmişdir. "Günortac" toponimi "Kitabi-Dədə Qorqud" dastanının qəhrəmanı, Təpəgözün gözünü çıxaran Basatın yurdu kimi xatırlanır.

***Hacı Hüseynqulu məscidi*** Ordubad rayonunun Gənzə kəndinin mərkəzində tikilmiş tarixi abidədir. Məscidin üzərində kitabə olmasa da, yerli camaatın dediyinə görə, onu Hacı Hüseynqulu adlı nüfuzlu bir şəxs tikdirib. Dünyasını dəyişdikdən sonra həmin şəxs məscidin cənub divarının qarşısında dəfn edilib. Məsciddə olduğu kimi, qəbrin üstündə də heç bir epiqrafik sənəd-kitabə yoxdur. Ancaq son zamanlar məscid bərpa edilərkən qəbrin üstü də götürülmüş, mərmər başdaşı və sinədaşı qoyulmuşdur. Başdaşının üstündə ərəb əlifbası ilə "Mərhum Hacı Hüseynqulu" sözləri həkk edilmişdir. Naxçıvanda ən qədim məscid nümunələrindən olan abidənin daxili böyük salondan ibarətdir. Sonralar, deyilənə görə, XX əsrin əvvəllərində məscidin qərb tərəfindən əlavə bina tikilib kişilərə aid salona birləşdirilib. Məscidin əsas, qədim hissəsi daşdan olan üç böyük sütunun və divarların üstündə dayanıb. Sütunların arası və sütunlarla divarların arası tağvari birləşdirilib. Divarların qalınlığı 1 metrdir. Məscidin içərisində divarlarda 5 divariçi taxça düzəldilib. Girişin önündə eyvan var. Eyvanın fasadı 12 tağdan ibarətdir. Məscidin yanında qonaq otağı vardır. Məscid təmir olunarkən divarlarında gəc üzərində rənglə dini məzmunlu kəlamlar yazılmışdır. Kənddəki yas mərasimləri bu məsciddə keçirilir. Məscidin cənubunda olan qəbiristanlıq da vaxtilə Hacı Hüseynqulunun torpaq sahəsi olmuş və o, bu torpağı qəbiristanlıq üçün camaata bağışlamışdır. Orada olan məzar kitabələrinə əsasən demək olar ki, Hacı Hüseynqulu XV əsrdə yaşamış, məscidi də həmin vaxt inşa etdirmişdir.

***Hacı Məhəmməd Nağı*** Naxçıvanda anadan olmuşdur və Azərbaycan memarlıq məktəbinin banilərindəndir. Ordubad rayonunun Dəstə kəndindəki məscidin kitabəsinin məlumatı ilə onun adı elmi dövriyyəyə daxil edilmişdir. Məscidin üzərində qalan birinci kitabəyə əsasən məlum olur ki, məscidin inşasını hicri 1019-cu ildə (miladi 1610-1611) Əbdülxan Cavad oğlu əmr etmiş, ikinci kitabənin məlumatlarından isə aydın olur ki, məscid elə həmin vaxt Fəxr-ül Hacı Məhəmməd Nağı tərəfindən inşa edilmişdir. Həmçinin ikinci kitabədə qeyd olunmuşdur ki, Dəstə kəndinin şərq tərəfində Tub Basar (Topasar) kövşənindən axan Vənəndçayın üzərində hazırda qalıqları qalan və el arasında "Hacı Nağı körpüsü" adlanan körpünü də Hacı Məhəmməd Nağı inşa etmişdir. XVI yüzilliyin ikinci yarısı – XVII yüzilliyin birinci yarısında yaşayan Hacı Məhəmməd Nağının məscid və körpü inşa etməsi onun bir memar kimi çoxcəhətli yaradıcılığından xəbər verir və göstərir ki, o, zamanəsinin məşhur sənətkarı olmuşdur.

***Haçapara*** Naxçıvan-Əshabi-Kəhf yolunun sağ tərəfində, təpənin ətəyində olan arxeoloji abidədir. Buradakı yaşayış binaları dördkünc formalıdır. Binalar möhrədən tikilərək hər iki tərəfdən palçıqla suvanmışdır. Evlərin içərisində divarlarda yerləşdirilən buxarı və kiçik taxçalar vardır. Bəzi evlər çoxotaqlıdır. Araşdırmalar zamanı yaşayış yerlərindən son orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı əldə edilmişdir. Kəndin şimal tərəfində kəhriz vardır. Kəhriz buranın yeganə su mənbəyidir. Yaşayış yerinin yaxınlığında iki nekropol vardır. Arxeoloji materiallara və tikinti qalıqlarına əsasən yaşayış yerini XVIII-XX əsrə aid etmək olar.

***Heydər məscidi*** Şərur rayonunun Aşağı Aralıq kəndində XX əsrdə (1996-cı il) inşa edilən möhtəşəm dini abidədir. Məscid 419 kvadratmetr sahəsi olan ərazidə yerləşir. Binanın ümumi sahəsi 155 kvadratmetrdir. Məscidin həyəti dini simvollar, nəbati və həndəsi naxışlarla bəzədilmiş, dəmir məhəccərlərlə əhatə edilmişdir. Məscidin binası Şərq memarlıq elementlərini özündə əks etdirən müasir üslubda tikilmişdir. Bina ikimərtəbəlidir. Birinci mərtəbə kişilərin, ikinci mərtəbə isə qadınların ibadəti üçün nəzərdə tutulmuşdur. Kişi və qadınların ibadət salonu üçün ayrıca giriş qoyulmuşdur. Kişilər binanın əsas fasadı sayılan cənub qapısından, qadınlar isə qərb fasaddakı qapıdan istifadə edirlər. Məscid daxildən və xaricdən düzbucaqlı formadadır. Divarların qalınlığı 50 santimetrdir. Bina düzxətli tavana əlavə olunmuş düzbucaqlı günbəz və binanın damında yerləşdirilmiş iki simmetrik minarə fiquru ilə tamamlanmışdır. Binanın günbəzində göy kaşılarla "Heydər məscidi" sözləri, əsas giriş qapısının üzərində isə Quran ayəsi yazılmış kitabə vurulmuşdur. Məscidin divarları xaricdən binaya abidə görkəmi verən qırmızı kərpic rəngi ilə boyanmış, qapı və pəncərələrin kənarları və eləcə də binanın küncləri ağ rənglə rənglənmişdir.

Naxçıvan sosial alimlər, arxeoloq tarixçilər, mədəniyyət və arxeologiyanın beynəlxalq nüfuzlu şəxsləri üçün cəlbedici bir ərazi olaraq qalmaqdadır. Yuxarıda qeyd olunan tarixi və dini abidələr Naxçıvandakı abidələrin yalnız bir neçəsidir. Bu abidələr qarla örtülmüş dağlar, silsilə dağlar üzərində olan qədim qalalar və təmiz su mənbələri ilə məşhur olan spiralvarı çayların verdiyi görüntü ilə daha da cəlbedici olmuşdur.

**Peter TASE**
***30.07.2015***
***Amerika Birləşmiş Ştatlarının "Foreign Policy News" qəzeti***

## Arxeoloji tədqiqatlar bəşər sivilizasiyası tarixinin öyrənilməsinə xidmət edir

*Məlum olduğu kimi, Şərur rayonundakı Qız qalası qədim yaşayış yerində Azərbaycan-Amerika Birləşmiş Ştatları arxeoloji ekspedisiyası tərəfindən tədqiqat işləri aparılıb. Arxeoloji ekspedisiyasının tərkibində olan ABŞ-ın bir neçə alim və tədqiqatçısı ilə həmsöhbət olduq, onların təəssüratlarını öyrəndik.*

***Hilary GOPNİK – Amerika Birləşmiş Ştatlarının Emori Universitetinin professoru:***



– Bir alim kimi tədqiqatlarımda Naxçıvanın yeri ayrıdır. Burada tarixi-mədəni irsə diqqətlə yanaşılır, onlar qorunur. Bu, bizim üçün çox vacibdir və bu ərazini seçməyimiz də təsadüfi deyil. Qız qalasında iki ildir ki, tədqiqat işləri aparırıq. Əməkdaşlarımız burada olmaqdan məmnundurlar. Onlardan biri burada yaşamış insanların hansı bitkilərdən istifadə etməsini araşdırır, biri insan sümükləri üzərində tədqiqat işləri aparır. Digər əməkdaşımız burada hansı heyvanların bəsləndiyini öyrənir. Bu il 3 kurqan tədqiq etmişik. İndiyə qədər aşkar olunan maddi-mədəniyyət nümunələri Qız qalası yaşayış yerində məskunlaşan qədim tayfaların oturaq və yarımköçəri həyat tərzi keçirdiyini təsdiq edir. Əldə etdiyimiz məlumatlardan aydın olur ki, burada məskunlaşan insanlar Arpaçay vadisi boyunca yüksək dağlıq ərazilərə köç edib və geri qayıdıblar.

Boyalı qablar mədəniyyəti ilə bağlı da yeni faktlar aşkar etdik. İndiyədək Boyalı qablar mədəniyyətini yaradan insanların harada yaşaması ilə bağlı aydın təsəvvür yox idi. Əvvəllər aparılan tədqiqatlara şübhə ilə yanaşılırdı. Lakin bizim iştirakımızla Boyalı qablar mədəniyyətinə aid yeni abidələrin aşkar olunması, xüsusilə Qız qalası yaşayış yerində qalın mədəni təbəqənin üzə çıxarılması çox sevindiricidir. Artıq Boyalı qablar mədəniyyətini yaradan tayfaların məhz bu ərazidə yaşadığı təsdiq edildi və biz bu barədə beynəlxalq konfranslarda məruzələr edəcəyik. Qız qalasında aparılan arxeoloji tədqiqatlar yalnız muxtar respublikanın deyil, ümumilikdə, bəşər sivilizasiyasının tarixinin öyrənilməsinə xidmət edir.

***Robert BRAYNT – Corciya Universitetində GPS mütəxəssisi:***



– Mənim işim Qız qalası ərazisində toplanılan məlumatların rəqəmsal qaydada yığılması və kompüter sistemlərinin idarə edilməsidir. Qazıntı işlərinin aparıldığı ərazilərin fotoşəkillərini çəkirəm və onları qarşılaşdırıram. Əldə etdiyimiz modellər imkan verir ki, biz ərazinin tarixi əhəmiyyətini ortaya çıxaraq.

2008-ci ildən Naxçıvana gəlirəm və arxeoloji tədqiqatlarda iştirak edirəm. Naxçıvan mənim üçün mükəmməl yerdir. Bura çox rahat və bərəkətli məmləkətdir. Burada bir çox yerlərdə olmuşam. Demək olar ki, Naxçıvan haqqında müfəssəl məlumata sahibəm. Naxçıvanın əhalisi mehriban və qonaqpərvər insanlardır. Bu cür insanları tanımağa çox məmnunam. Demək olar ki, hər kəs bizə kömək etməyə can atır. Xüsusilə qeyd etməliyəm ki, bizim rahatlığımız və təhlükəsizliyimiz üçün nə lazımdırsa, edilib. Naxçıvan mənim ikinci evim və ikinci vətənimdir. Mən bütün bilik və bacarığımı bu torpağın tarixini öyrənməyə yönəltmişəm. Bundan çox böyük şərəf duyuram.

***Selin NOGENT – Ohayo Universitetinin doktorantı:***



– Mən Qız qalasında Orta Tunc dövrünə aid məzarlıqlar üzərində tədqiqatlar aparıram. Dəfn adət-ənənələrini öyrənirəm. Bu il 3 kurqan üzərində araşdırma apardıq. Bu tədqiqatlarımız bizim üçün çox mühüm əhəmiyyət kəsb edir. Məzarlıqlarda olan insan sümüklərinə Naxçıvanda indiyədək rast gəlinməyib. Kurqanlardan əldə etdiyimiz insan skeletinə aid qalıqların tədqiqi Boyalı qablar mədəniyyətinin mənşəyinin müəyyən edilməsində mühüm rol oynayacaqdır. Həndəsi ornament və heyvan rəsmləri ilə bəzədilmiş boyalı qabların aşkar olunması Naxçıvanın Boyalı qablar mədəniyyətinin əsas mərkəzlərindən biri olduğunu, Cənubi Qafqaza boyalı qabların məhz Naxçıvandan yayıldığını təsdiq edir. 2011-ci ildən Naxçıvana gəlirəm. Mənim dissertasiya işim də Qız qalasında məzarlıqlar və Naxçıvanın tarixi barədədir. Qeyd etməliyəm ki, buranın insanları istiqanlı və mehribandırlar. Biz Naxçıvanda böyük dostluqlar qurmuşuq. Mühüm elmi əlaqələrimiz var. Əldə etdiyim məlumatlar barədə geniş məqalələr yazmağı düşünürəm.

***Müsahibəni apardı:***
**Sara ƏZİMOVA**



# Ağbulaq İstirahət Mərkəzində
## gənclərin asudə vaxtı səmərəli təşkil edilib

*Bu gün doğma Naxçıvanın ən çox sevilən məkanlarından biri Ağbulaq kəndidir. Bu məkanda Tanrı dağların hər dərəsini, hər zirvəsini elə yaradıb ki, sanki bu dağ kəndi möhtəşəm qalanı xatırladır.*

Bizi əhatə edən dağların, məğrur, başı dik qayaların, zümrüd meşələrin, diş göynədən buz bulaqların, abı-havası şəfa verən yaylaqların əhatəsində yerləşən kənddə ən çox üz tutulan ünvanlardan biri Ağbulaq İstirahət Mərkəzidir. Zəngin və gözəl təbiəti hamını valeh etdiyi kimi, buradakı mükəmməl şərait insanda həm də xoş təəssüratlar yaradır. Məlumat üçün bildirək ki, Ağbulaq muxtar respublikada kənd turizminin tətbiq olunduğu ilk yaşayış məntəqəsidir. Üç yaşayış korpusundan və bir yeməkxana binasından ibarət olan mərkəz iki ildir, istifadəyə verilmişdir. Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Ağbulaq kəndində istirahət mərkəzinin yaradılması təsadüfi deyil. Hələ keçmiş Sovetlər Birliyi dövründə bu kənddə məktəblilərin yay düşərgələri təşkil olunurdu. Bu, o dövrdə həyata keçirilən mühüm tədbirlərdən biri idi. Bu gün müstəqil Azərbaycanda da xidmət sahələrinin inkişafına, yeni istirahət komplekslərinin tikilməsinə və turizm infrastrukturunun təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi yolun dövlət başçısı tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanda hərtərəfli sosial-iqtisadi inkişafa nail olunmuş, sabitlik təmin edilmişdir. Bütün bunlar ölkəmizdə yay və qış turizminin inkişafını daha da sürətləndirir. Ağbulaq İstirahət Mərkəzində də yay və qış turizminin inkişafı üçün əlverişli şərait vardır".***

Bəli, muxtar respublikamızın zəngin kənd və sağlamlıq-müalicə turizm potensialı olan yaşayış məntəqələrində belə müasir infrastrukturun yaradılması turizm sektorunun inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Mərkəzdə gənclərin yay düşərgələrinin təşkili ənənə halını alıb. Bu il də Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə muxtar respublikanın fəal və idmançı gənclərinin 7 günlük istirahət düşərgəsi təşkil edilib. Biz də fürsətdən istifadə edib mərkəzdə həmin gənclərlə həmsöhbət olduq, təəssüratlarını öyrəndik.





Əhalinin sıx yaşadığı yerlərin istənilən baxımdan sağlam həyat prinsiplərinə uyğun olmamasını istər məntiqi, istərsə təcrübi yolla fəhm etmək çətin deyil. Bir çox hallarda bu amil ekoloji problemlərin təkanvericisinə çevrilir. Ağbulaq İstirahət Mərkəzinə təşrif buyuran gənclərin hamısı bu fikirdədir.

"Buna qədər bir çox istirahət mərkəzlərində dincəlmişəm.Ağbulaq İstirahət Mərkəzində isə ilk dəfədir ki, oluram. Düşünürəm ki, bura Naxçıvanın ən gözəl guşələrindən biridir. Yaradılan yüksək şəraitdən və göstərilən xidmətdən gənclər olduqca razıdırlar. Onu da qeyd edim ki, burada muxtar respublikanın fəal gəncləri ilə tanış olduq". Bu fikirlər istirahət mərkəzində dincələn Elvira İsgəndərovaya məxsusdur.

"Bakı-2015" birinci Avropa Oyunlarının bürünc mükafatçısı Tayfur Əliyevi dinləyək: "Ötən il də Ağbulaqda olmuşdum. İstirahət mərkəzində yaradılan şərait ürəyimcədir. Bir neçə günlük istirahətimiz əla keçdi. Burada müxtəlif intellektual oyunlar oynamaqla yanaşı, həm də fərqli mövzularda keçirilən seminarlarda iştirak etdik, Şahbuz rayonu ərazisindəki tarixi yerlərdə olduq. Ağbulaq İstirahət Mərkəzində eyni zamanda məşqlərimi də davam etdirdim".

Naxçıvan Dövlət Universitetinin tələbəsi Samir Şəkərəliyev də eyni fikirdədir: "Burda istirahətimiz mükəmməl təşkil olunub. Daha çox bəyəndiyim futbol və voleybol oynamaqdır".

"Naxçıvan" Universitetinin tələbəsi Nərmin Muradlı və Naxçıvan Dövlət Universitetinin tələbəsi Fahimə Məmmədova isə bu cür kollektiv istirahətlərdə daha çox dost qazandıqlarını bildirdilər: "Ağbulaq İstirahət Mərkəzinin rəhbərliyi, həmçinin təşkilatçılar biz gənclərin asudə vaxtlarının daha səmərəli keçməsi üçün hər cür şərait yaratmışdılar. Burda müxtəlif oyunlar oynamaqla yanaşı, Azərbaycan bədii filmlərinə də baxdıq. Bu cür kollektiv istirahətlərdə biz gənclər əhatəmizdə olan digər həmyaşıdlarımızla yaxın münasibət qururuq".

Mərkəzdə olduğumuz gün ərzində bizi daha çox cəlb edən məqam gənclərin futbol oynaması oldu. Biz də oyunu izlədik və bir tamaşaçı kimi zövq aldıq.

Ağbulaq İstirahət Mərkəzinin icraçı direktoru Novruz Novruzov mərkəzlə bizi tanış edərkən vurğuladı ki, burada bütün işlər plan üzrə gedir və gənclərin vaxtlarını səmərəli keçirmələri üçün ən kiçik detallar belə nəzərə alınıb.

Ağbulaq İstirahət Mərkəzinə səfər bir nəticəni ümumiləşdirdi: gənclik bir ölkənin dəyəridir, gənclik sevgidir, gənclik bir millət haqqında bir ölkədə yaradılan imicdir. Gəncliyə diqqət yetirənlər isə hər zaman tarixdə qalanlardır.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2015-ci ilin iyul ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 374 | 22,4 | 22,5 | 100,4 |
| 2. | Ordubad rayonu | 1345 | 80,7 | 81,0 | 100,4 |
| 3. | Kəngərli rayonu | 640 | 38,4 | 38,5 | 100,3 |
| 4. | Culfa rayonu | 1447 | 86,8 | 87,0 | 100,2 |
| 5. | Naxçıvan şəhəri | 3758 | 225,5 | 225,5 | 100,0 |
| 6. | Şərur rayonu | 2185 | 131,1 | 131,1 | 100,0 |
| 7. | Babək rayonu | 2100 | 126,0 | 126,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 335 | 20,1 | 20,1 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 35430 | 2125,8 | 2125,4 | 100,0 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **47614** | **2856,8** | **2857,1** | **100,0** |

**Qeyd:** İyul ayında texniki itki nəzərə alınmaqla daxil olan 47 milyon 614 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 856 min 800 manat olmuş, cəmi 2 milyon 857 min 100 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## İşaxtaran vətəndaşların nəzərinə

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Naxçıvan Regional Peşə Tədris Mərkəzində Kabel lehimləyicisi və elektrik montyoru peşəsi üzrə kurs təşkil edir.

Tədrisin müddəti 2 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2015-ci il avqust ayının 15-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış.*

***Əlaqə telefonu: 545-32-33***

## Məqsəd insanların təhlükəsizliyini təmin etməkdir

***Muxtar respublikamızda yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi istiqamətində görülən işlərin tərkib hissəsi kimi nəqliyyatın sıx olduğu yerlərdə yeraltı və yerüstü piyada keçidlərinin inşasına xüsusi diqqət yetirilir, əhalinin təhlükəsiz və rahat hərəkəti təmin edilir.***

Elə bu il aprelin 7-də Naxçıvan şəhərindəki "Azərbaycan" küçəsində yeni yerüstü piyada keçidinin istifadəyə verilməsi bu sahədə görülən tədbirlərin davamı kimi diqqəti çəkir. Ancaq təəssüf ki, vətəndaşlarımızın əksəriyyəti onlar üçün yaradılmış şəraitdən düzgün istifadə etmir. Elə bu günlərdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşlarının piyadalarla bağlı keçirdiyi reyd zamanı bir sıra nöqsanlar aşkar olunub. Ancaq tətbiq edilən ən son texnoloji yeniliklər bu problemi aradan qaldıracaq. Bu barədə müxbirimizə Dövlət Yol Polisi İdarəsinin əməkdaşı Əyyub Babayev məlumat verib:

– Bu gün muxtar respublikada yol hərəkəti təhlükəsizliyinin təmin olunması diqqət mərkəzində saxlanılır. Yol infrastrukturunun tamamilə yenidən qurulması, magistral yollarda sürətölçən radar sisteminin və nəzarət-izləmə kameralarının quraşdırılması, Dövlət Yol Polisi İdarəsi əməkdaşlarının nəqliyyat və müasir texniki avadanlıqla təmin olunması hərəkətin təhlükəsizliyinə və yol-nəqliyyat hadisələrinin qarşısının alınmasına xidmət edir. Bu tədbirlərdən biri də Dövlət Yol Polisi İdarəsinin istifadəsinə verilmiş planşetlərdir. Yol hərəkət qaydalarını pozan vətəndaşlar polis əməkdaşlarımıza



üzərlərində şəxsiyyət vəsiqəsinin olmadığını bəhanə edərək cərimə sanksiyasından yayınmağa çalışır və ya özləri haqqında səhv məlumat verirdilər. Bu da işimizi çətinləşdirirdi. Verilən planşetlər çətinlikləri aradan qaldıraraq işimizi xeyli asanlaşdıracaq. Planşetlər imkan verəcək ki, vətəndaşın kimliyi haqqında verdiyi məlumat yoxlanılsın, piyadanın üzərində sənədləri olmadan belə, həmin qaydanı pozan vətəndaş üçün protokol tərtib edilsin. Qeyd edim ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə haqqında protokol yazılmış vətəndaşlar bu cəriməni yerində POS-terminal və yaxud bank vasitəsilə ödəyə bilərlər. Əks halda vətəndaş məhkəmə məsuliyyətinə cəlb olunur. Məqsəd insanların təhlükəsizliyini təmin etməkdir. Hamı yaradılmış şəraitdən qanunlar çərçivəsində istifadə etməlidir.

✍ **S.ƏZİMOVA**


**ŞƏRQ qapısı**

Baş redaktor əvəzi: MUXTAR MƏMMƏDOV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 589